# AZƏRBAYCAN RESPUBLİKASININ
# AUDİTORLAR PALATASI ŞURASININ
# QƏRARI

**Bakı şəhəri** **№385/3** **05 fevral 2026-cı il**

## “Etik pozuntular üzrə statistik illik (yarımillik) hesabatların hazırlanması Qaydası” barədə

Azərbaycan Respublikası Auditorlar Palatasının 2026-cı il üzrə iş planının 6.6-cı “Etik pozuntular üzrə statistik illik hesabatların hazırlanması” bəndinin və Palata Şurasının 2025-ci il 13 iyun tarixli 377/3 nömrəli qərarının icrasını təmin etmək məqsədilə Palatanın Haqsız rəqabətə qarşı mübarizə və beynəlxalq əlaqələr idarəsinin Peşə etikasının tətbiqi şöbəsi (E.Hacızadə) tərəfindən hazırlanmış “Etik pozuntular üzrə statistik illik (yarımillik) hesabatların hazırlanması Qaydası”nın layihəsini nəzərdən keçirərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. “Etik pozuntular üzrə statistik illik (yarımillik) hesabatların hazırlanması Qaydası” Şurada müzakirə zamanı edilən irad və təkliflər nəzərə alınmaqla təsdiq edilsin (əlavə olunur).

2. Haqsız rəqabətə qarşı mübarizə və beynəlxalq əlaqələr idarəsinə (R.Cəfərli) və həmin idarənin Peşə etikasının tətbiqi şöbəsinə (E.Hacızadə) tapşırılsın ki:

2.1. auditor xidmətlərinin göstərilməsi zamanı etik pozuntular üzrə statistik hesabatlar hazırlanarkən bu “Qayda”nın rəhbər sənəd kimi tətbiqi təmin edilsin;

2.2. Palatanın üzvləri tərəfindən “Qayda”nın icrasına dair metodiki dəstəyin həyata keçirilməsi təmin edilsin;

2.3. etik pozuntulara dair statistik hesabatların hazırlanması prosesinin təşkil edilməsi və bu prosesdə iştirak edən tərəflər arasında işin əlaqələndirilməsi təmin edilsin;

2.4. etik pozuntulara dair aparılmış monitorinqin nəticələri üzrə Palatanın rəhbərliyinə dövri məlumatların təqdim edilməsi təmin edilsin.

3. Auditor təşkilatlarının rəhbərlərinə və sərbəst auditorlara tapşırılsın ki, auditor xidmətləri göstərərkən bu “Qayda”nın müddəalarından irəli gələn tələblərə riayət etsinlər.

4. Auditin transformasiyası, operativ tənzimləmə və keyfiyyətin idarə edilməsi idarəsinə (Q.Əhmədov) tapşırılsın ki, bu qərarın və “Etik pozuntular üzrə statistik illik (yarımillik) hesabatların hazırlanması Qaydası”nın mətnlərinin Auditorlar Palatasının internet səhifəsində və “Auditorun şəxsi kabineti” sistemində yerləşdirilməsi təmin edilsin.

**Şuranın sədri** **Vahid Novruzov**